**UOT 94 (479.24)**

# BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİNİN QARS ƏHALİSİNƏ KÖMƏYİ TARİXİNDƏN (BETUL ASLANIN ƏSƏRİ ƏSASINDA)

**Vidadi UMUDLU***

***Açar sözlər:*** *Betul Aslan, xeyriyyə cəmiyyəti, Qars, yardım, Birinci Dünya müharibəsi.*

## Giriş

Qədim köklərə malik olan xeyriyyəçilik ənənələri Azərbaycan xalqının ən zəruri keyfiyyətlərindən biri hesab olunur. Ta qədimdən insanlarımız köməyə ehtiyacı olan kimsəsizləri, xəstələri, kasıbları darda qoymamış, onların ehtiyaclarının qarşılanması üçün əllərindən gələni əsirgəməmişlər. Xeyriyyəçilik ənənələri XX əsrin əvvəlində Bakıda xeyriyyə cəmiyyətinin qurulmasına gətirib çıxarmışdır.

Hələ XIX əsrin 70-ci illərində maarifçi H.B.Zərdabi tərəfindən belə bir Cəmiyyətin nizamnaməsi hazırlanaraq rəsmi dövlət qurumlarına təqdim edilsə də, Cəmiyyətin fəaliyyəti mümkün olmamışdı. Yalnız XX əsrin əvvəllərində H.B.Zərdabi və H.Z.Tağıyevin birgə təşəbbüsü ilə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti adlı qurum təsis olundu. Qısa müddətdə Cəmiyyətin fəaliyyət miqyası xeyli genişlənmiş, qardaş Türkiyədə də yardıma ehtiyacı olan daha çox insanı əhatə etmişdir. Osmanlı dövlətinin bir sıra şəhərlərində, o cümlədən Qars şəhərində öz şöbəsini açaraq yerli əhaliyə yardım əlini uzadan Cəmiyyətin fəaliyyəti türk tarixçisi Betul Aslanın da diqqətini çəkmiş və "Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi" adlı əsərini təşkilatın xeyriyyə fəaliyyətlərinə həsr etmişdir. Əsərin bir hissəsi xeyriyyə Cəmiyyətinin Qars və ətrafında yaşayan müsəlman türklərə edilən kömək və yardımlarından bəhs edir.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətinin Türkiyə tarixşünaslığında araşdırılması tariximizin həmin dövrünün öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Cəmiyyətin Anadolu türklərinə yönəlik xeyriyyəçilik tədbirləri tariximizin mühüm mərhələsini təşkil edir.

## Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurulması və fəaliyyəti

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda xeyriyyə cəmiyyətlərinin təşkili artıq bir zərurət halına gəlmişdi. Belə ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurulmasından əvvəlki dövrü xarakterizə edən tarixçi B.Aslan qeyd edir ki, XIX əsrin ikinci yarısında Azərbaycanda yaşayan bir çox millətlər xeyriyyə cəmiyyətlərinə malik olduqları halda, Azərbaycan türklərinin belə bir xeyriyyə cəmiyyəti yox idi. Erməni xeyriyyə cəmiyyəti Azərbaycanda möhtac ermənilərə əl uzadıb, yetim uşaqlara sığınacaq və təhsil imkanları təmin edərkən möhtac, kimsəsiz türklərin yardımına yetişəcək bir cəmiyyət yox idi. Bu vəziyyət Azərbaycan türk ziyalılarını olduqca narahat edirdi (2, s.53). XX əsrin əvvəlində Rusiya əsarətində yaşayan türklər dini ehtiyaclarını lazımınca təmin edə bilmirdilər. Vəziyyəti diqqətlə izləyən çar hökuməti müsəlman məktəb, müəllim və ruhanilərin, xüsusən də müsəlman əhali ilə sıx təmasda olanların fəaliyyətinə ciddi nəzarət edir, hər növ dini ədəbiyyatı qadağan edirdi (2, s.66).

1905-ci ilin siyasi islahatlarından yararlanan Azərbaycanın görkəmli şəxsləri nəhayət Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin açılmasına nail oldular. Belə ki, Cəmiyyətin Həsən bəy Zərdabi tərəfindən hazırlanan nizamnaməsi Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən təsdiq edilmiş və 15 noyabrda Cəmiyyət rəsmən öz fəaliyyətinə başlamışdı. Cəmiyyətin fəaliyyətində xeyriyyəçi, Azərbaycan burjuaziyasının öncüllərindən olan tacir Hacı Zeynalabdin Tağıyev mühüm rol oynamışdır. Həmçinin dövrün görkəmli şəxslərindən olan Əlimərdan bəy Topçubasov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə və digərləri cəimyyətin fəaliyyətində yaxından iştirak etmişdilər (1, v.13-

* *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: v.umudlu@yahoo.co.uk*

30.). Tarixçi M.B.Məmmədzadə yazır ki, xeyriyyə cəmiyyətinin əsas qurucu və rəhbərləri, Azərbaycanda baş verən milli hərəkatın da rəhbərləri olduğundan Rusiya hökumətinin təqib və təzyiqlərini çox yaxından hiss edirdilər. Belə ki, Ə.B.Topçubaşov çarın Dumanı özbaşına buraxmasına və Stolıpin irticasına etiraz olaraq hazırlanan "Viborg Bəyannamə"sini imzaladığı üçün həbs edilmiş, Ə.B.Ağayev, Ə.B.Hüseyinzadə, Yusuf Akçura oğlu Türkiyəyə mühacirət etmək məcburiyyətində qalmışdılar. Bakıdakı bir çox ziyalılar Rusiya hökumətinin təzyiqləri nəticəsində həbs və sürgün edilmişdilər (5, s.28).

Cəmiyyətin quruluşunun əsas məqsədi kasıb və ehtiyacı olan müsəlmanlara kömək etmək, yetimləri sığınacaqlarla təmin etmək, ehtiyacı olanlara pul və paltar bağışlamaq, kasıb xəstələri xəstəxanalarda müalicə etmək idi. Bununla yanaşı, Cəmiyyət mədəni və təhsil məsələləri ilə də yaxından məşğul olurdu. Əsasən kasıb şagirdlərin məktəbə cəlb olunaraq onların dərsliklərlə təmin edilməsi və orta təhsillərini tamamlaması başlıca hədəflərdən hesab olunurdu (1, v.13-30).

Tarixçi B.Aslanın təsbitinə görə, 1905-ci ildən sonra Azərbaycan türkləri həm fərdi, həm də cəmiyyətlər şəklində Türkiyə ilə münasibətlər quraraq Azərbaycan xalqının sosial və mədəni cəhətdən inkişafında Osmanlı dövlətinin köməyindən yararlanmağa çalışmış, təhsil və din sahəsində bəzi tələblər irəli sürmüşlər. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin də quruluşunun ilk illərində Osmanlı padşahı və hökuməti ilə münasibətlər qurmaq üçün cəhdlər göstərdiyi bəlli olmaqdadır (2, s.63). Bu məqsədlə xeyriyyə cəmiyyətinin üzvü, Bakıdakı müsəlman məktəblərində müəllim və eyni zamanda Bakıda çıxan "Həyat" qəzetinin yazarı Axund Yusif Talıbzadə Cəmiyyətin möhürü və Hacı Zeynalabdin Tağıyev tərəfindən imzalanmış vəkalətnamə ilə 1907-ci ilin avqust ayında İstanbula göndərildi (3, v.24). Həqiqətən də Cəmiyyətin fəaliyyəti Türkiyə və Anadolu türkləri ilə sıx bağlı idi. Heç də təsadüfi deyil ki, Türkiyənin bir çox şəhərlərində Cəmiyyətin şöbələri açılaraq ehtiyacı olanlara yardımlar göstərilmişdir.

Müəllif qeyd edir ki, Cəmiyyət fəaliyyətinin əsas hissəsini Birinci Dünya müharibəsi illərində Rusiya işğalı altında olan Qafqaz, Şərqi Anadolu və Şərqi Qara dəniz bölgələrində həyata keçirə bilmişdi. Bu bölgələrdə müsəlman-türk xalqına göstərdiyi humanitar yardımla yanaşı, onları rus məmurlarının haqsızlıqlarından və ermənilərin zülmündən qorumuş, haqq və hüquqlarını müdafiə etmişdi (1, s.55). Birinci Dünya müharibəsi əsnasında baş verənlər, Qafqaz cəbhəsindəki müsəlman əhalinin yaşadığı fəlakətlər, cəmiyyətə böyük təsir göstərmiş və Cəmiyyət bir ildə on ilin durğunluğunun öhdəsindən artıqlaması ilə gəlmişdi (2, s.63).

Azərbaycan mətbuatının da rolunu yüksək qiymətləndirən tarixçi qeyd edir ki, onların fədakar səyi nəticəsində Azərbaycan xalqı Qafqaz cəbhəsindəki müharibələri zamanı rus işğalı altına düşmüş bölgələrdə rus və ermənilər tərəfindən əhaliyə qarşı törədilən təcavüz və qırğınlardan xəbər tuta bildi. Anadoluda yaşanan bu fəlakətlər Azərbaycan əhalisinin kədər və qəzəbinə səbəb oldu. Müəllif həmçinin türk ordusunun geri çəkilməsindən istifadə edən rusların müdafiəsiz müsəlman əhaliyə qarşı qırğınlar törətdiyini qeyd edir (2, s.85). Qafqaz cəbhəsi müharibələri zamanı minlərlə müsəlman türkün qaçması və əzab çəkməsi barədə xəbərlər Azərbaycana çatdıqda, müharibə bölgələrindəki qardaşlarının vəziyyətinə biganə qala bilmədilər, bir tərəfdən yardım fəaliyyətlərinə başladılar. Həmçinin edilən bu haqsızlıqlara görə Rusiya hökumətinə öz etirazlarını bildirdilər. Nəticədə ermənilərə xəbərdarlıq edildi, ədalətsizliyə səbəb olan bəzi Rusiya məmurları vəzifələrindən azad edildi (2, s.104).

Qeyd etdiyimiz kimi, 1915-ci ilin əvvəllərində Qafqaz cəbhəsində baş verən müharibələr zamanı müsəlman əhalinin ağır fəlakətə məruz qalması Azərbaycan xalqını xeyli kədərləndirmişdi. Qars, Ardahan, Sarıkamış, Oltu, Artvin, Ardanuç və s. yerlərdən gələn xəbərlər əhaliyə ağır təsir etmiş və orada yaşayan qardaşlarına yardım əli uzatmaq üçün fəaliyyətə başlamışdılar. Baş verən hadisələri dəyərləndirən B.Aslan yazır ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyi və koordinasiyası ilə Qafqazın türklər yaşayan həmin bölgələrində yardım komitələri təşkil edildi. Qars və ətrafına ilk yardım komitələri göndərildi (2, s.91). Çox keçmədən Cəmiyyət üzvlərinin Rusiyanın işğalı altındakı bölgələrə səfərləri başladı. Nümayəndə heyətinin Anadoluya gəlməsi ilə ruslar tərəfindən işğal edilmiş hər bölgədəki müsəlmanlara müntəzəm və iri həcmli yardım işinə başlanılmış oldu.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti əvvəlcə müharibə bölgələrinə göndərmiş olduğu nümayəndələr vasitəsi ilə təcili toplanaraq Gəncə, Tbilisi və Bakı kimi şəhərlərə gətiriləcək və müharibə bölgəsindən öz bacarıqları ilə qaçaraq, Qafqazın müxtəlif bölgələrinə gələn müsəlman qaçqınlar üçün sığınacaqlar açaraq onları yerləşdirmək üçün işə başladılar (2, s.132). B.Aslan yazır ki, Bakı Müsəlmanları Xeyriyyəsi Cəmiyyətinin rəhbərliyi və koordinasiyası ilə Qafqazın hər yerində yardım toplama işləri başlanıldı. Azərbaycan türklərinin Qafqazın demək olar ki, hər yerində Anadoluda fəlakətə məruz qalan qardaşları üçün həyata keçirdiyi yardım kampaniyasının əsas şüarı "Qardaş köməyi" adını aldı (2, s.91). Müəllifin fikrincə, Anadoluda müsəlmanların fəlakətə düçar olması ilə Azərbaycan türklərinin həyata keçirdiyi qardaş köməyinin fəaliyyətində əsas rol oynayan şəxslərin siyahısına doktor Xosrov Paşa bəy Sultanov başçılıq edirdi (2, s.122).

Azərbaycan ictimaiyyətinin haqlı reaksiyaları Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə də müsbət təsirini göstərdi. Əslində Cəmiyyət müharibə bölgələrində fəaliyyətlə kifayətlənməyib, nəzarətsiz müsəlman yetimlər üçün məskunlaşma və sığınacaq açma işlərini də gördü və bu istiqamətdə səylərini sürətləndirdi (2, s.132). Birinci Dünya müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülərək Rusiyanın Orenburq şəhərinə göndərilən, qayıtdıqdan sonra Qars millət vəkili seçilən F.Erdoğan "Türk Ellerinde Hatıralarım" adlı əsərində yazır: "Türk ordusu Qarsı tərk etdikdən sonra erməni və rusların törətdikləri zülmləri Bakı Xeyriyyə Cəmiyyətinə bildirirlər. Yusif bəy Cəfərov Moskvaya gedərək bu vəziyyəti çara şikayət edir. Bundan sonra yerli türklərə xeyriyyə cəmiyyətinin yardım etməsinə icazə verilir. Dərhal doktor Xosrov bəy Sultanov əlli nəfərlik qrupla Qarsa gəlir. Hər tərəfdən dul qadınlar və yetim uşaqlar toplanaraq Bakıya göndərilir" (4, s.103). Qafqaz cəbhəsindəki müharibə bölgələrində sahibsiz uşaqların müəyyənləşdirilməsi və toplanması ən vacib məsələ olduğu kimi, həm də çox çətin bir iş idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti fəlakətə düçar olanları müəyyənləşdirmək üçün öz nümayəndələrini Rusiyanın işğalı altındakı müsəlman bölgələrinə göndərmişdi. Qafqaz cəbhəsindəki müharibədən əziyyət çəkən müsəlmanlara yardım göstərmək üçün Rusiya hökumətindən lazımi icazə alan Cəmiyyət yetim uşaqları toplayıb onları öz himayəsinə götürməyi özünün ən böyük vəzifəsi hesab etdi (2, s.137).

Cəmiyyətin Tiflisdəki ilk sığınacağı 1915-ci ilin sentyabrında açıldı. Əvvəllər Tiflisə gətirilən müsəlman yetimlər müvəqqəti olaraq altı otaqlı bir məktəbə yerləşdirildi. Lakin bu açılış sığınacaqdakı mövcud tələbatı ödəmək üçün yetərli olmadı (2, s.134). Bayram münasibət ilə Azərbaycan xalqı yetimlərin yerləşdiyi sığınacaqlara və Cəmiyyətin binasına axın edərək onlara müxtəlif hədiyyələr verir, könüllərini almağa çalışırdılar. İki böyük dini bayramlar xaricində Azərbaycan türkləri müsəlmanların müqəddəs saydığı bəzi günlərdə də fəlakətə məruz qalan qardaşlarına yardım toplamaq fürsətini əldən vermir, toplanan maddi yardımlar müharibədə olan müsəlmanların ehtiyaclarına sərf olunurdu (2, s.103).

**Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qarsdakı fəaliyyəti**

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Türkiyədə fəaliyyət göstərdiyi ərazilərdən biri də Qars bölgəsi idi. Xeyriyyə cəmiyyətinin nümayəndələrinin Qars və ətraf bölgəsindəki ən ümdə vəzifəsi kimsəsiz və yetim uşaqları yaşadıqları çıxılmaz vəziyyətdən qurtarmaq idi. Bölgədəki sakinlərin əksəriyyətini qadın və uşaqlar təşkil edirdi. Müharibənin törətdiyi fəlakətlər üzündən minlərlə uşaq tərk edilmiş, yetim, ac və susuz qalmışdı. Bəzi müsəlman uşaqlar rus və ermənilərin əlinə keçir, erməni yetimxanalarına göndərilir və onları xristianlaşdırmağa çalışırdılar (2, s.193). F.Erdoğan qeyd edir ki, türk-erməni qarşıdurmaları zamanı ermənilər tərəfindən öldürülən türklərin tərk edilmiş ailələri və uşaqları Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən toplanmış, məktəb yaşında olanlar məktəblərə yerləşdirilmiş və dul qadınların rahat yaşamaları üçün lazımi kömək göstərilmişdir (4, s.33-34).

Dünya müharibəsinin başlanmasınadək Azərbaycan türkləri Qarsdakı türklərlə əlaqəsini itirməmiş və Rusiya rəhbərliyinin təzyiq və nəzarətinə baxmayaraq, onlara mədəniyyət və təşkilati baxımdan dəstək verməyə davam etmişdilər. Rus işğalı altında formalaşan bu mühit və yaxın münasibətlər 1914-cü ildə Qafqaz cəbhəsi müharibələri zamanı Qars və ətrafındakı türklərin qırğını və dü-

çar olduğu fəlakətlər Azərbaycanda çox təsir və qəzəb doğuran amil idi. Qarsda və onun ətrafında ilk yardım fəaliyyətlərinə başlandı (2, s.189).

Ermənilərin törətdiyi qırğınlar, türk ordusu Qarsa gələnə qədər davam etmişdi. Bununla yanaşı Türküstandan gətirilən və rus ordusunda xidmət edən türk əsgərlərinin bir hissəsi, eləcə də xeyriyyə cəmiyyətinin bəzi nümayəndələri də bu qırğınlarda vəhşicəsinə öldürülmüşdülər (2, s.210). Qarsa gələn Cəmiyyətin nümayəndələri həm Rusiyalı məmurlar, həm də ermənilər tərəfindən müsəlman əhaliyə qarşı edilən hücum və ədalətsizliyə şəxsən şahid oldular və bu vəziyyəti düzəltmək üçün dərhal aktiv fəaliyyətə başldılar (2, s.197). Qars Vilayət Komitəsinin iclas və işlərində müsəlman əhalisi adından iştirak edən Əlixan Qantəmirov, xüsusilə müsəlman əhalinin qorunması və xalqın dövlət yardımı haqqındakı qanunlarından faydalanmaları üçün əhəmiyyətli işlər gördü (2, s.197). Beləliklə, xeyriyyə cəmiyyəti nümayəndələrinin fəaliyyəti nəticəsində Qars bölgəsindəki müsəlman əhalinin dövlət yardımından faydalanmaları təmin edildi. Lakin burada ən vacib məqam bölgədəki rus məmurlarının hakimiyyəti altında erməni və yunanların hücum və təcavüzləri qarşında əzilən, heç bir haqq və hüququnu qoruya bilməyən müsəlman əhalinin sahibsiz olmadığını göstərmək idi (2, s.199).

Müharibə bölgələrindəki nəzarətsiz müsəlman uşaqlarının toplanmasında daha səmərəli nəticələr əldə etmək üçün Cəmiyyət digər rəsmi qurumlar və xeyriyyə cəmiyyətləri, eləcə də Rusiya Qırmızı Xaç təşkilatı ilə əlaqə qurdu və bu mövzuda onlardan faydalanmağa çalışdı (2, s.139). Müxtəlif qurumlarla aparılan danışıqlar nəticəsində mərkəzi Qarsda olan hərbi məclisin qurulmasına qərar verildi. Rza Karaşarov hərbi məclisin sədri seçildi. Hər bölgədən bir nümayəndə bu məclisə seçildi (2, s.207). Xalqın təşkilatlanması və milli şüurun oyanması baxımından çox əhəmiyyətli olan Qars İslam Hərbi Şurasının Konqresi, ermənilərə müsəlman-türk xalqının bölgədə böyük bir çoxluq və güc təşkil etdiyini sübuta yetirdi (2, s.139).

B.Aslan qeyd edir ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndələri, yardım gətirdikləri Anadolunun bir çox bölgələrində olduğu kimi, Qarsda da türk hərbçiləri gələnə qədər şəhəri tərk etmədilər və bölgə xalqı ilə birlikdə erməni hücumuna qarşı vuruşdular. Birinci Dünya müharibəsinin başlanğıcından bəri Azərbaycan türkləri, Cəmiyyət vasitəsi ilə “Qardaş köməyi” şüarı altında Qarsa və ətrafındakı türk əhalisinə çoxlu maddi və mənəvi yardım göstərmiş, haqlı olaraq Qars türklərinin minnətdarlıq və şükranlıq hisslərini qazanmışdılar (2, s.211). Müəllifin təsbitinə görə, Birinci Dünya müharibəsi illərində Qars bölgəsi türklərinin məruz qaldığı fəlakətli günlərdə yeganə dost əli uzadan Azərbaycan türkləri olmuşdu. Qardaşlarının sədaqəti və fədakarlıq köməyi qarşısında qarslılar razılıq və minnətdarlıq duyğularını dönə-dönə ifadə etmişdilər (2, s.211). Ən əsası, xeyriyyə cəmiyyətinin yardım səyləri, Qars bölgəsində yaşayan türk xalqına güclü inam və ümid verərək birlik içərisində olma şüurlarını artırdı. Artıq üzləşdikləri haqsızlıqları və bəlaları Cəmiyyət nümayəndələrinə və lazımi orqanlara bildirməyə başladılar. Digər tərəfdən, ermənilərə qarşı daha ayıq olmaq lazım gəldiyini anladılar (2, s.201).

Qars bölgəsində türk xalqının başına gətirilən fəlakətlər qarşısında yardım işlərinə başlayan Azərbaycan türkləri, əvvəldə bildirildiyi kimi, Rusiya hökuməti Dövlət Duması və Qafqaz Baş Qubernatorluğu qarşısında məsələ qaldıraraq rəsmi icazə almağa nail oldular. Nəticədə Qafqazın hər yerində yardım fəaliyyətləri başladıldı. Çay, şəkər, un və geyim əşyalarından ibarət iki vaqon yardım Qarsa göndərildi. Ağabala Quliyevin rəhbərlik etdiyi bu nümayəndə heyəti Qars, Sarıqamış və digər yerlərdə yardımları payladıqdan sonra Azərbaycana qayıtdılar və bölgədəki vəziyyət barədə Cəmiyyətə hesabat verdilər. Hesabatda Qars və ətrafındakı müsəlman əhalinin çox ağır vəziyyətdə olduğu və yardımın təcili və ən qısa zamanda çatdırılmayacağı təqdirdə insanların aclıqdan və soyuqdan məhvə məhkum olacağı ifadə edildi (2, s.191). F.Erdoğan qeyd edir ki, Qarsın türk kəndlərinin əhalisinə geyim və ərzaq paylanılır. Bakı milyonçuları bu iş üçün pullarını sərf etməyə başlayırlar. Hacı Zeynalabdin Tağıyev müharibə bitənə qədər hər gün 1000 çuval fabrik unu göndərməyi öz üzərinə götürür (4, s.103).

**Nəticə**

Göründüyü kimi, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətini tədqiq edən tarixçi Betul Aslan Cəmiyyətin öz üzərinə düşən vəzifənin öhdəsindən artıqlaması ilə gəldiyini bir daha təsdiq edir. Cəmiyyət üzvləri Birinci Dünya müharibəsinin əvvəlindən sonuna qədər digər işğal bölgələrində olduğu kimi, Qars bölgəsində də çətin vəziyyətdə olan türk xalqının yanında olmuş, onların haqq və hüquqlarını qorumaqla yanaşı, ərzaq və geyimlə təmin etmişdilər. Minlərlə kimsəsiz uşaq və qadının küçə və xarabalıqlardan toplanaraq onlar üçün açılan sığınacaqlara yerləşdirildilər. Qars bölgəsində həyata keçirilən yardım tədbirlərində Hacı Zeynalabdin Tağıyev başda olmaqla, Bakı milyonçuları mühüm rol oynamışlar.

Cəmiyyətin məqsədyönlü fəaliyyətinin Türkiyədə geniş oxucu kütləsinə çatdırılmasında Azərbaycan xalqının dostu, müəllif Betul Aslanın xüsusi rolu danılmazdır. Zəngin mənbə bazasına əsaslanan tədqiqat əsəri qardaş köməyindən bəhs edən çoxsaylı faktları özündə ehtiva edir. Monoqrafiya Azərbaycan tarixşünaslığının zənginləşməsi işinə də öz töhfəsini vermişdir.

## ƏDƏBİYYAT


1. AR DTA, F. 46, siy. 2, iş 395.
2. Aslan B. I. (2000). “Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri”nin “Anadolu Türkleri”ne “Kardaş Kömeği (Yardımı)” ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi. Ankara:Atatürk Kültür Merkezi Yayınları.
3. BOA, F.Yıldız Sadaret Husüsı Märüzatı, iş 514
4. Erdoğan F. (1998). Türk Ellerinde Hatıralarım. Ankara: Kültür Bakanlığı Yayınları.
5. Mehmetzade M.B. (1991). Milli Azerbaycan Hareketi. Ankara: Azerbaycan Kültür Dernegi Yayınları.


## *РЕЗЮМЕ*

***Видади Умудлу***

### *Из истории о помощи «Бакинского мусульманского благотворительного общества» населению Карса (по книге Бетула Аслана)*

***Ключевые слова:*** *Бетул Аслан, благотворительность, Анатолийские турки, помощь, Первая Мировая война, Карс*


Одно из важных качеств азербайджанского народа - традиция благотворительности - получило распространение в начале 20 века и распространилось на соседние страны, в том числе и в Турцию. В этом отношении важна деятельность «Бакинского мусульманского благотворительного общества», основанного в 1905 году. В статье рассказывается о помощи, оказываемой Бакинским благотворительным обществом мусульман населению, пострадавшему в результате Первой Мировой войны в Карсском районе Турции. Основываясь на работе турецкого историка Бетула Аслана, это помощь анализируются и доводятся до сведения общественности.

Автор Б.Аслан, представивший информацию о структуре, членах и уставе общества в книге «Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri”nin Anadolu Türklerine Kardaş Kömeği(Yardımı) ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi», также обратил особое внимание на благотворительная деятельность благотворительных обществ в разных провинциях Турции. В статье обсуждается благотворительная деятельность Бакинского мусульманского благо-

творительного общества в Карсском районе, а также материальная и моральная поддержка, оказываемая населению, пострадавшему от российского и армянского угнетения. Удаление сирот и женщин с передовой и их размещение обществом в безопасных местах также широко освещается в книге автора.

***SUMMARY***

***Vidadi Umudlu***

***From the history of the help of the "Baku Muslim Charitable Society" to the population of Kars (based on Betul Aslan's book)***

***Key words:*** *Betul Aslan, charitable society, Kars, aid, World War I*

One of the important qualities of the Azerbaijani people - the tradition of charity - became widespread at the beginning of the 20th century and spread to neighboring countries, including Turkey. In this respect, the activity of the "Baku Muslim Charitable Society" founded in 1905 is particularly important. The article describes the assistance provided by the Baku Muslim Charitable Society to the population affected by the First World War in the Kars region of Turkey. Based on the work of the Turkish historian Betul Aslan, this assistance is analyzed and brought to the attention of the public.

Author B.Aslan, who presented information on the structure, members and charter of the society in the book "Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri"nin Anadolu Türklerine Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi" also drew particular attention to the charitable activities of charitable societies in different provinces of Turkey. The article discusses the charitable activities of the Baku Muslim Charitable Society in the Kars region, as well as the material and moral support provided to the population affected by Russian and Armenian oppression. Removing orphans and women from the front lines and placing them in safe places in society is also widely covered in the author's book.